**Müxtəlif zaman fasilələri ilə iyun ayının 15-i iki tarixi hadisənin - ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı və "bir millət iki dövlət"in başçıları - İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın birlikdə imza atdıqları Şuşa Bəyannaməsinin qəbul edildiyi tarixi gündür. 2021-ci il iyun ayının 15-də Şuşa şəhərində imzalanan bəyannamə bir ananın iki oğlu - Azərbaycan ilə Türkiyənin sarsılmaz müttəfiqliyini bütün dünyaya nümayiş etdirdi. Bu müttəfiqliyin möhkəmləndirilməsi üçün xalqımızın ümummilli lideri Heydər Əliyevin əvəzsiz xidmətləri olmuşdur.**

respublikadakı çoxmillətliliyi Azərbaycanın sərvəti adlandırmışdır:

"Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Azərbaycanın ən başlıca sərvətlərindən biri qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan müxtəlif dinlərə etiqad edən adamlardır. Biz bunu qiymətləndiririk və saxlayacağıq. Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər böyük işlər görmüşdür.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun qəhrəmanlığı sayəsində Azərbaycanın qədim, mədəni və böyük strateji əhəmiyyətə malik şəhəri olan Şuşanın işğaldan azad edilməsindən bir il yarımdan artıq vaxt ötür. Xalqımızın tarixinə qızıl hərflərlə yazılan şanlı qələbə sevincini yaşayırıq. Qalib Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində üçrəngli bayrağımız Şuşada dalğalanır! Prezident İlham

# Əbədiyaşar ömür, tarixi gerçəklik, Qarabağ zəfəri

Ulu öndər Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti xalqımızın çoxəsrlik dövlətçilik tarixinə qızıl hərflərlə yazılıb. Dahi şəxsiyyətin qətiyyəti, cəsarəti və uzaqgörənliyi nəticəsində Azərbaycanda ictimai-siyasi sabitliyə nail olunub, dövlətçiliyimiz məhv olmaq təhlükəsindən xilas edilib, respublikamızın ictimai-siyasi, iqtisadi və mədəni tərəqqisində misilsiz nailiyyətlər qazanılıb. Ümummilli liderin Azərbaycanın müstəqilliyinin bərpası və möhkəmləndirilməsindəki xidmətləri danılmazdır. Cəsarətlə deyə bilərik ki, türk dünyasının lideri Heydər Əliyev dühasına olan xalq sevgisi zaman-zaman öz təsdiqini tapıb. Nə qədər Azərbaycan var, ulu öndər Heydər Əliyev ideyaları yaşayacaq, nəsildən-nəslə ötürüləcək.

70 il keçmiş sovet birliyində yaşadığımız dövrdə xalqımız multikultural dəyərlərimizi də qoruyub yaşadaraq, müstəqilliyimiz dövrünə gətirib çıxara bildi. Dövlətimiz müstəqilliyini bərpa etdikdən sonra multikultural dəyərlər özünün ən yüksək zirvəsini Azərbaycan Respublikasının Konstitusiyasının ulu öndər Heydər Əliyevin rəhbərliyi altında qəbul olunması ilə fəth etmiş oldu. Konstitusiyamızda bütün dini etiqadların qanun qarşısında bərabərliyi, dövlət təhsil sisteminin dünyəvi xarakter daşıması bərabərlik hüququnun, fikir və söz azadlığının, vicdan azadlığının, sərbəst toplaşmaq azadlığının təsbit olunması dövlətimizin ölkə ərazisində yaşayan digər dini etiqad nümayəndələrinə də hansı səviyyədə yanaşmasının, əslində multikultural dəyərlərin təzahürü oldu.

Ümummilli lider Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusu, müstəqil respublikamızın dünya birliyinə inteqrasiyasının, yeni inkişaf strategiyasının banisi olmaqla bərabər, eyni zamanda, Azərbaycanda multikulturalizmin dövlət siyasətinə çevrilməsinin əsasını qoymuşdur. Heydər Əliyev 1993-cü ilin 15 iyununda - ölkə rəhbərliyinə qayıtdığı gün Milli Məclisdə etdiyi ilk çıxışında bu məqamı xüsusi vurğulamış, biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir. Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Azərbaycanlı sözü bizi həmişə birləşdirib".

Tarixi İpək Yolu üzərində, Avropa ilə Asiyanın qovşağında yerləşən Azərbaycan əsrlər boyu fərqli sivilizasiyaların bir araya gəldiyi, milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, müxtəlif millətlərin və konfessiyaların nümayəndələrinin sülh, anlaşma və dialoq şəraitində yaşadığı məkan kimi tanınıb.

Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin nəzəri irsində və möhtəşəm fəaliyyətində təhsil məsələləri də xüsusi yer tutub. Ulu öndərimiz ölkənin və xalqın taleyində, hərtərəfli tərəqqisində, uğurlar qazanmasında təhsilin xüsusi rolunu, əhəmiyyətini həmişə nəzərə alaraq onu yüksək dəyərləndirib. Dahi rəhbər deyirdi: "Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır". Ulu öndərimiz təhsilin məzmunu, mahiyyəti, məqsədləri, səmərəli təşkili, müəllim əməyinin şərəfi, şagirdlərin və tələbələrin vəzifələri barədə dəyərli fikirlər söyləmiş, Azərbaycan təhsilinin hərtərəfli yüksəlişi qayğısına qalmış, illər boyu bu sahədə böyük inkişafa rəvac verən sistemli tədbirlər həyata keçirmişdir.

İstər Azərbaycana birinci, istərsə də ikinci rəhbərliyi dövründə ümummilli lider Heydər Əliyev daim təhsilə, tərbiyəyə strateji sahə kimi baxmış, Vətənin, xalqın tərəqqisində təhsilin roluna yüksək qiymət vermişdir. Təhsil sahəsi xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir - deyən müdrik rəhbər Azərbaycan təhsilinin inkişafı naminə son dərəcə

Əliyev bu illər ərzində həmişə deyirdi ki, biz, əlbəttə ki, öz əzəli torpaqlarımıza - Qarabağa, Şuşaya, Xankəndinə qayıdacağıq, dövlət bayrağımız orada dalğalanacaq. Zənnimizcə, dünyada yeganə liderdir ki, xalqına verdiyi vədlərin hamısını yerinə yetirə bilir. Bütün səmimiyyətimlə deyirəm ki, Prezidentimiz xalqımıza verdiyi bütün vədləri ardıcıllıqla, böyük səriştə ilə, dayanmadan yerinə yetirir.

Ötən il iyun ayının 15-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın işğaldan azad edilən qədim Şuşa şəhərinə səfəri Türkiyə-Azərbaycan əlaqələrinin tarixində unudulmaz bir gün oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın imzaladıqları Şuşa Bəyannaməsi - Müttəfiqlik müqaviləsi iki qardaş ölkənin Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq etdi. Həm də Şuşa Bəyannaməsi tarixi varisliyi göstərməklə Qars müqaviləsinin həyatiliyini və uzunömürlülüyünü, Cənubi Qafqazda yeni düzənin yarandığını nümayiş etdirdi. 2020-ci ilin payızında işğaldan azad edilən Qarabağda tarixi baxımdan çox qiymətli, mənəvi baxımdan isə qürurverici və şərəfli bir mənzərənin şahidi olduq. Qardaş Türkiyənin mənəvi və siyasi dəstəyi sayəsində Azərbaycan Vətən müharibəsində parlaq qələbə qazandı. Cəmi 44 gün ərzində dünyanı heyrətə gətirən Azərbaycan hərbçilərinin döyüş taktikası və ən müasir hərbi silahlardan istifadə etməsi, vətənpərvər gənclərin qəhrəmanlığı, xalqın sevgi, inam və birmənalı dəstəyini qazanmış Prezident İlham Əliyevin sərkərdə qətiyyəti tarixin səhifələrinə qızıl hərflərlə həkk olundu. Doğma xalqının nicat yolunu müəyyən edən ulu öndər Heydər Əliyevin ideyaları və gün gələcək ki, Azərbaycan dünyaya günəş kimi doğacaqdır sözləri öz təsdiqini tapdı.

**Natiq CAVADOV,**
**iqtisad üzrə elmlər doktoru, professor.**

**Respublika.- 2022- ci il.- 12 iyun.- S. 2.**